UOT 37.0

**Leyla Vaqif qızı Rüstəmova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# TƏLİM MODULLARININ METODOLOGİYASI VƏ MƏZMUNU

**Лейла Вагиф гызы Рустамова**
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# МЕТОДОЛОГИЯ И СОДЕРЖАНИЕ МОДУЛЬНОГО ОБУЧЕНИЯ

**Leyla Vagif Rustamova**
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State Univercity*

# METHODOLOGY AND CONTENT OF TRAINING MODULES

**Xülasə.** Məqalədə təlim modullarının mahiyyəti, məzmunu və metodologiyası geniş şəkildə şərh olunur. Göstərilir ki, modul təlimi sistemində hər şeydən əvvəl bu işin metodologiyası müəyyənləşdirilməlidir. Bunun üçün ilk növbədə modul təlimi kompetensiyaları aydınlaşdırılmalıdır. Yəni, bilik, bacarıq, münasibət və təcrübə fəaliyyətini əhatə edən modul sistemi yaradılmaldır. Məqalədə texniki kompetensiyalar, aralıq kompetensiyaları və əlaqə kompetensiyalarının hazırlanması metodikası barədə də məlumat verilir. Məqalədə, həmçinin kompetensiyalara əsaslanan modul proqramlarının (KƏMP) da hazırlanması ilə bağlı məlumatlar verilir. Məqalədə müəllifi modul tipli kurikulumların hazırlanmasına da münasibət bildirir.

***Açar sözlər:*** *təlim modulları, modul təlimi sistemi, təlim texnologiyaları, kompetensiya, kompetensiyalara əsaslanan modul təlim texnologiyaları, modul tipli kurikulumlar*

**Резюме.** В статье говорится о значении, содержании и методологии модульного обучения. Отмечается, что в этой системе, прежде всего, следует определить методологию этой работы. Для этого необходимо в первую очередь ясность компетенции модульного обучения то есть, следует создать модульную систему, включающую в себя знания, умения, отношение и опыт. В статье, также даются сведения о методике подготовки технических, промежуточных и связных компетенций. В статье говорится и о подготовке модульных программ, опирающихся на компетенции (МПОК). Автор, выражает своё отношение и к подготовке курикулумов модульного типа.

***Ключевые слова:*** *модули обучения, система модульного обучения, технологии обучения, компетенция, технологии модульного обучения, опирающиеся на компетенции, курикулумы модульного типа*

**Summary.** The article describes in detail the essence, content and methodology of training modules. It is shown that in the modular training system, first of all, the methodology of this work should be defined. To do this, first of all, the competencies of modular training should be clarified. That is, a modular system covering knowledge, skills, attitudes and practical activities should be created. The article also provides information on technical competencies, intermediate competencies and methods of developing communication competencies. The article also provides information on the development of competency-based module programs. The author also comments on the development of modular curricula.

***Key words:*** *training modules, the system of training module, the technology of training, compositivity, the module of training techology which based on the competetion, curriculum on the type of module*

Müstəqillik dövründə yaşadığımız hazırkı şəraitdə bütün sahələrdə olduğu kimi təhsil sahəsində də yeni konsepsiyaların meydana gəlməsinə təbii proses kimi baxmaq lazım gəlir.

Dünyada cərəyan edən sivilizasiya, qloballaşma və hətta sinergetika hadisələri yeni pedaqoji ideyaların irəli sürülməsinə, ən müasir təhsil konsepsiyalarının müəyyənləşdirilməsinə təkan verir. Belə pedaqoji ideyalardan, ən müasir konsepsiyalardan biri də təlim modullarının yaradılmasıdır. Açığı etiraf edək ki, dünyanın inkişaf etmiş bir sıra ölkələrində, o cümlədən, ABŞ-da, Almaniyada, Fransada, Yaponiyada, Rusiyada tətbiq edilən təlim modulları, yeni təhsil paradiqmaları günü-gündən təkmilləşdirildiyi halda bizim ölkəmizdə yenicə tətbiq olunmağa başlamışdır. Ona görə də, hazırda ümumtəhsil məktəblərində çalışan fənn müəllimləri və xüsusilə ibtidai sinif müəllimləri təlim modullarının hazırlanması və tətbiqi işində çətinlik çəkirlər. Bunları nəzərə alaraq təlim modulları, paradiqmaları və onların məzmunu barədə bir qədər ətraflı şərhlər aparmağı məqsədəmüvafiq hesab edirik. Onu da qeyd etmək olar ki, təhsil sahəsində yaradılan modul təlimi sisteminin o cümlədən proqramların, dərsliklərin, dərs vəsaitlərinin, hətta köklü konsepsiyaların ilk növbədə metodolojiyasını yaratmaq lazımdır ki, həmin yeni ideyalar və konsepsiyalar uzun müddət həmin metodologiyanın üzərində yaşaya bilsin.

Ona görə ilk növbədə təlim modullarının metodologiyasının yaradılması barədə söhbət açmağa ehtiyac duyulur. Öncə "metodologiya" anlayışının özünə aydınlıq gətirmək lazım gəlir. Açığını deyək ki, metodologiya anlayışına respublikamızda hazırlanan ədəbiyyatlarda müxtəlif tərzdə yanaşılır. Hətta, ensiklopedik nəşrlərdə də ziddiyyətli şəkildə şərh olunur. Məsələn Sovetlər ittifaqı dövründə nəşr olunan demək olar ki, bütün ensiklopedik nəşrlərdə "metodologiya" tədqiqat metodları haqqında təlim kimi təqdim olunmuşdur. Hətta, bəzi nəşrlərdə "metodologiya" fəaliyyətin üsullarının, vasitələrinin təlimi kimi göstərilir. Məsələn, "Sovet Ensiklopedik lüğət"ində göstərilir ki, "*metodologiya*" "*metod*" və "*loqos"* sözlərindən əmələ gəlib fəaliyyətin strukturu, məntiqi təşkilinin əsasları, üsul və vasitələri haqqında təlimdir. Diqqət etsək, sovet dövründə "metodologiya" anlayışını fəaliyyətin strukturu, məntiqi təşkili üçün səciyyəvi olan üsul və vasitələrin təlimi kimi məhdud çərçivədə izah etmişlər. Sovet dövründə nəşr olunan fəlsəfi ədəbiyyatda, o cümlədən "Ensiklopedik fəlsəfə lügət"ində qeyd edilir ki, "metodologiya" nəzəri və praktik fəaliyyətin təşkili və tərtibinin prinsiplər və vasitələr sistemi, həmçinin bu sistem haqqında təlimdir. Göründüyü kimi sovet ensiklopediyası lüğətindən fərqli olaraq fəlsəfə lüğətində fəaliyyətin üsul və vasitələrilə yanaşı, həm də prinsiplər haqqında da təlim hesab olunan "metodologiya" anlayışı yenə də məhdud şəkildə izah olunmuşdur. Fikrimizcə, təhsilin, təlimin və onları öyrənən elm sahəsinin metodologiyası yeni ictimai-siyasi və iqtisadi baxışlara, milli və ümumbəşəri dəyərlərə əsaslanan biliklər sisteminə, demokratik prinsiplərə sivilizasiya, qloballaşma və sinergetika amillərindən təşəkkül tapan, ictimai fikrə söykənən vətəndaş mövqeyinə əsaslanmalıdır. Bu mənada yeni pedaqoji texnologiyaların pedaqoji prosesə daxil olmasına xüsusi diqqət yetirmək lazımdır. Çünki, yeni pedaqoji texnologiyalar və innovasiyalarla iş ayrı-ayrı elmi-pedaqoji-metodik əsaslara söykənən elmi konsepsiyalar sistemidir. Hansı ki, bu konsepsiyalar sisteminin metodoloji prinsiplərinin müəyyənləşdirilməsi zəruri sayılır. Çünki, hər bir elmi konsepsiyanın tətbiqi onun metodoloji prinsiplərinə istinad etməklə həyata keçirilir. Bu baxımdan modul təlim texnologiyalarının tətbiqi üçün onların da metodoloji prinsiplərinin müəyyənləşdirilməsinə ciddi ehtiyac duyulur. Ona görə ki, modul təlim sisteminin metodoloji prinsipləri həm də müvafiq kompetensiyalara əsaslanır. Burada yaxşı olar ki, "kompetensiya" anlayışına da aydınlıq gətirək.

Metodik ədəbiyyatlarda "kompetensiya" anlayışının müxtəlif tərifləri mövcuddur, çünki bu anlayışın özü yenidir və onun nəzəri əsasları hələ tam formalaşmayıb. Təcrübədə istifadə üçün onun "kompleks xarakterli" mənasını dərk etmək çox əhəmiyyətlidir. Yəni, kompetensiya - əmək fəaliyyətinin həyata keçirilməsində birmənalı əhəmiyyətə malik olan bilik, bacarıq, dəyər, məqsəd və münasibətlərin inteqrasiyası və ya bilik, bacarıq, münasibət və təcrübənin müxtəlif şəraitdə tətbiqidir (1, 84). Təhsildə müxtəlif kompetensiyalar bilik, bacarıq, vərdişlər sisteminin qabaqcıl təcrübə ilə vəhdətdə götürülməsi, konkret hədəf və bu hədəfə doğru irəliləməyə istiqamət verən motiv formalaşır. Bu motivlər isə tələbatlardan törəyir. Əslində təlim modullarının müəyyənləşdirilməsi müvafiq tələbatlardan yaranır.

Müəyyən kompetensiyalar əsasında formalaşdırılan təlim modullarının motivləri tələbatlardan törəyirsə, tələbatların əsasında bilik, bacarıq və vərdişlər sistemi dayanır. Bu zaman müəllim şagird münasibətlərinin düzgün tənzimlənməsində qabaqcıl təcrübə əsas rol oynayır. Ona görə də haqqında danışılan "***Kompetensiya"*** anlayışını təşkil edən əsas komponentlərin həm pedaqoji, həm də metodik ədəbiyyatda göstərilmiş mənaları mövcuddur. Onların içərisində bilik, bacarıq, vərdişlə yanaşı münasibət və təcrübə də yer alır.

**Bilik** – koqnitiv (dərketmə) fəaliyyətdə əldə olunur və kompenensiyaya əsaslanan təlim heç də biliyin rolunu azaltmır. Əksinə, bilik həm fəaliyyətin yerinə yetirilməsində, həm də yaşayıb yaratmaq üçün lazım olan həyatı amildir.

**Bacarıq** – fəaliyyətin məqsədyönlü həyata keçirilməsidir.

**Münasibət** – əşyaya, obyektə, şəxslərə olan münasibətdir.

**Təcrübə** – insanın şəxsi hazırlığı, ətraf aləm, cəmiyyət tərəfindən qazanılmış tətbiqetmə bacarığıdır, daxili aləmidir ki, o illərlə əldə edilir (1, s. 84). Deməli bilik, bacarıq, vərdişlə yanaşı qabaqcıl təcrübə və münasibətlərin birliyi kompetensiyanın əsas mənbələri rolunu oynaya bilir. Əslində, kompetensiyanın mənbəyi rolunu oynaya bilən həmin amillər təkcə təhsil mühiti üçün deyil, digər təsərrüfat sahələri üçün də səciyyəvi ola bilərlər. Yəni, modullar sisteminin hərəkətverici qüvvələri olan kompentesiyaların işləmə dairəsi, tətbiqi formaları və istifadə olunması tipləri də vardır.

Kompetensiyanın aşağıdakı 3 tipi mövcuddur:

1. Texniki kompetensiya (peşə kompetensiyası) – peşə fəaliyyətinə məxsusdur.

2. Aralıq (skvoznie), mobil kompetensiyalar – sosial, kommunikativ, metodik və digər kompetensiyalardır ki, bunlar əmək fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edir.

3. Əlaqə kompetensiyası (bulaq suyu kimi qaynayan kompetensiya) .. vətəndaş üçün ona görə lazımdır ki, o, sosial – iqtisadi həyatda fəal iştirak etsin və ömür boyu təhsil üçün baza (özül) olsun. Bunlar insan həyatının ilkin mərhələlərində formalaşmağa başlayır, tədricən dərinləşir (1, s. 84-85). Onların hər birini formalaşmağa təhrik edən motivlərin düzgün müəyyənləşdirilməsi də əsas şərtlərdəndir.

Təcrübə və müşahidələr göstərir ki, ibtidai siniflərin humanitar fənləri üçün təlim modulları hazırlayan sinif müəllimlərinin hər birini bu işə təhrik edən tələbatlardır. Onlar öz şagirdlərini modul təlimin tətbiqi işinə təhrik etməyi də bacarmalıdırlar. Hər iki tərəfin davranış motivlərinin düzgün müəyyənləşdirilməsi də əsas şərtlərdəndir. Psixoloqların qeyd etdiyi kimi, şəxsiyyətin fəallığının mənbəyini müxtəlif tələbatlar təşkil edir. Tələbatlarda şəxsiyyətin konkret varlıq şəraitindən asılılığı özünün fəal tərəfi ilə motivlər sistemi kimi meydana çıxır. Motivlər fəaliyyətə müəyyən tələbatların təmin olunması ilə bağlı olan təhriklərdir. Əgər tələbatlar bütün insan fəallığı növlərinin mahiyyətini, mexanizmini təşkil edirsə, motivlər bu mahiyyətin konkret təzahürləri kimi meydana çıxır.

İnsanın davranışını nəzərdən keçirərkən, əməllərini təhlil edərkən onların motivlərini aydınlaşdırmaq zəruridir. Ancaq bu halda həmin əməlin insan üçün təsadüfi və ya qanunauyğun olduğu haqqında mühakimə yürütmək, onun təkrar olunması imkanını qabaqcadan görmək, şəxsiyyətin bir əlamətini əmələ gəlməsinin qarşısını almaq və digər əlamətlərin inkişafını rəğbətləndirmək mümkündür (5, s. 115).

Qeyd olunanlara rəğmən deməliyik ki, təlim modulları ilə iş zamanı davranış motivlərinin şaxələnməsi prosesi baş verir. Modulların hər birinin tətbiqi üçün ayrı-ayrılıqda təhriklərin də səslənməsi özünün göstərir. Müəllimin tətbiq etdiyi modulun didaktik təsir dairəsi genişləndikcə, fəaliyyətin də çoxçeşidli dinamik inkişafı baş verir.

Motivlər bir-birindən onlarda təzahür edən tələbatların növünə, onların kəsb etdiyi formalara, genişliyinə və ya məhdudluğuna, onların reallaşdığı fəaliyyətin konkret məzmununa (əmək fəaliyyəti, tədris motivləri və i.a.) görə fərqlənir. Fəaliyyətin mürəkkəb növləri bir qayda olaraq bir motivə deyil, eyni vaxtda bir neçə təsir göstərən və qarşılıqlı təsirdə olan motivə cavab verir ki, bunlar da insanın hərəkət və əməllərinin şaxələnməsi, motivləşmə sistemini təşkil edir (5, s. 116). Belə motivləşmə sistemi həm modulların trayektoriyasını dəqiq müəyyənləşdirməyə, həm də eyni zamanda bir neçə modulu müqayisə etməyə imkan verir. Eləcə də

bir neçə kompetensiyalar əsasında müəyyənləşdirilən modulların eyni zamanda bilik, bacarıq və vərdişlər sistemi halında şagirdlərə verilməsi işini asanlaşdırır. Həyat bilgisi fənninin digər fənlərlə əlaqəsinə xidmət edən modulların hazırlanmasında da spesifiklik özünü göstərir. Qeyd etdiyimiz kimi modul – bacarıq, bilik, münasibət və təcrübənin (kompetensiyanın) əldə edilməsi üçün tələb olunan topludur.

Kompetensiyalara əsaslanan modul təlimin əsasını təlim nəticələrinə yönümlülük (nəticəyönümlülük) təşkil edir.

Tədris müəssisələrinin modul təliminə keçməsi prosesi çox mürəkkəb, həm də ağrı doğuran prosesdir, çünki illərlə toplanmış, ənənə halını almış təcrübə və streotiplərin qırılmasını tələb edən prosesdir (1, s. 85-86). Üstəlik həyata keçirilən kurikulum siyasətinin tələblərinə uyğunlaşdırılmayan kompetensiyalar uğurlu təlim modullarının hazırlanmasını təmin edə bilməz. Artıq bir neçə illərdir ki, ibtidai siniflərdə təhsilin kurikulumu siyasəti üzrə tədris həyata keçirilir. Milli ixtisas çərçivəsində (MİÇ) həyata keçirilən kurikulum dərsləri, yəni milli kurikulum üzrə həyata keçirilən təlim prosesində yeni kompetensiyalara əsaslanan modul təlim sisteminin yaradılması günün vacib tələbi kimi dəyərləndirilir.

Təlim nəticələri isə təlim başa çatdıqdan sonra insanın nələri bilməsi, nələri bacarması mənasını daşıyır.

Milli ixtisas çərçivəsi (MİÇ) vahid ixtisas səviyyələrinin təsvir (VİS) edildiyi sənəddir.

MİÇ təhsilalana müxtəlif səviyyələri müqayisə edərək növbəti səviyyələrə keçid yollarını müəyyənləşdirmək, qazanmaq istədiyi ixtisasla bağlı qərar vermək imkanı yaradır.

Kompetensiyalara əsaslanan təhsil proqramları (kurikulumlar) nəticəyönümlü olduğundan qiymətləndirmə də əldə edilmiş nəticəyə görə aparılır (1, s. 86). Ona görə də yeni kompetensiyalara əsaslanan təlim modullarını hazırlayarkən sınaqdan keçmiş kurikulumlardan bəhrələnmək çox faydalıdır. Bəzən yeni tipli kompetensiyaların özlərinin müəyyənləşdirilməsində, bu kompetensiyalar əsasında hazırlanan təlim modulları hazırkı kurikulumların çərçivəsinə uyğun gəlmir. Hətta bəzən tamamilə fərqli didaktik materiallar əsasında modullar hazırlanır. Ona görə, kompetensiyalara əsaslanan təlim modulları bütün elmi-pedaqoji-metodik tələblərə uyğun hazırlanmalıdır.

Kompetensiyalara Əsaslanan Modul Proqramları (KƏMP) Beynəlxalq Əmək Təşkilatının və digər qurumların təklif etdikləri blok-modul metodikasından da fərqlənir (1, s. 87). Ona görə fərqlənir ki, həm kompetensiyalar, həm də kompetensiyalara əsaslanan modullar ,yəni milli kurikulumlar əsasında hazırlanır. Belə olmasa, hazırlanan modullar, metodoloji baxımdan əhəmiyyətini itirmiş olar. Unutmaq olmaz ki, təhsil proqramlarının, yəni milli kurikulumların özləri müvafiq kompetensiyalara əsaslanaraq hazırlanmışdır. Məsələn, həyat bilgisi fənni və onun musiqi və təsviri incəsənətlə inteqrasiyası üçün hazırlanan təlim modulları kompetensiyalara əsaslanan təhsil proqramlarına (kurikumlara) uyğun hazırlanmışdır.

Kompetensiyalara əsaslanan təhsil proqramları (kurikulumlar) təhsilin praktik və nəzəri hissələrini eyni zamanda özündə ehtiva edir. Bunun üçün kompetensiyaların yaranmasında nəzəri biliklərin yeri və rolu müəyyənləşdirilir, ümumiləşdirilir, sistemə salınır ki, bu da sonda təhsilalanların motivasiyasına yardım göstərir, öyrənmə prosesinin vaxtını optimallaşdırmağa və təhsilvermənin maya dəyərini aşağı salmağa xidmət edir (1, s. 89). Açığını etiraf eləsək deməliyik ki, kompetensiyalara əsaslanan təhsil proqramlarının, yəni milli kurikulumların üstünlükləri çoxdur. Hansı ki, biz onlardan bir neçəsini diqqətə çəkə bilərik.

Milli kurikulumun ənənəvi təhsil proqramlarından ən mühüm üstünlüklərindən biri də onun çevikliyidir. Məhz bu çeviklik imkan verir ki, səmərəli kompetensiyalar əsasında yeni təlim modulları yaradılsın. Əgər kompetensiyalara əsaslanan təhsil proqramlarının (kurikulumların) vacib cəhətlərindən biri onların çevikliyidirsə, bu çevikliyi şərtləndirən cəhətlər də vardır. Onlar aşağıdakılardır:

- Texnoloji prosesdə və ya əməyin təşkilində dəyişiklik baş verdikdə rəqabətə dözə biləcək vəziyyəti təmin etmək şərtilə konkret modulu operativ şəkildə dəyişdirib yenisi ilə əvəz etməyə imkan verir.
- Bilik səviyyəsi, bacarığı və əvvəllər öyrəndikləri bilikləri birləşdirməklə hər bir təhsilalana təlimi fərdiləşdirməyə imkan verir.

• Eyni modulu (təlim modulu nəzərdə tutulur) bir neçə tədris proqramında tətbiqinə imkan verir (1, s. 89-90).

Həyat bilgisi fənni üçün hazırlanan modullar, yəni müasir kompetensiyalara əsaslanan milli kurikuluma uyğun hazırlanan təlim modulları həm sırf fənnin özünə xidmət edə bilər, həm də inteqrasiya üçün nəzərdə tutulan musiqi və təsviri incəsənət dərsləri üçün hazırlanan təlim modulları ilə müqayisəli şəkildə öyrədilə bilər. Əlbəttə, digər üstünlüklər də vardır.

Kompetensiyalara Əsaslanan Modul Metodikasının digər üstünlüyü ondadır ki, ilkin bilik və bacarıqlara sahib olan şəxsə texnoloji prosesin ona məlum olmayan pilləsini qısa zaman ərzində öyrədə bilər (1, s. 90).

Məhz ona görə də, orta ümumtəhsil məktəblərinin tədris prosesində, xüsusilə ibtidai siniflərin həyat bilgisi fənninin tədrisində, xüsusilə də fənnin musiqi və təsviri incəsənətlə inteqrasiyası prosesində təlim modullarından günün ən aktual tələblərinə uyğun olan bir şəkildə istifadə olunması;

– şagirdlərin şəxsiyyətyönlülük səviyyəsini yüksəldir;

– ibtidai sinif şagirdlərinin intellekt olaraq yetişməsinə kömək edir;

– şagirdlərin elmi dünyagörüşlərinin formalaşdırılmasını təmin edir;

– şagirdləri milli və ümumbəşəri dəyərlərə əsaslanan bilik, bacarıq və vərdişlər sisteminə yiyələndirir.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi ondan ibarətdir ki, məqalədə təlim modullarının mahiyyəti, məzmunu və metodologiyası şərh olunur, modul təlimi kompetensiyaları aydınlaşdırılır. Məqalədə həmçinin texniki kompetensiyalar, aralıq kompetensiyaları və əlaqə kompetensiyalarının hazırlanması metodikası barədə də məlumat verilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi** ondan ibarətdir ki, məqalə göstərilən kompetensiyalardan yalnız təhsil sahələri üçün də çox əhəmiyyətlidir.

**Nəticə** etibarilə deyə bilərik ki, göstərilən təlim modullarından və kompetensiyalardan hər hansı bir fəaliyyət sahələrində istifadə olunduqda b ilik və bacarıqlarının hərtərəfli formalaşmasını təmin edir.

**Ədəbiyyat:**
1. Əsgərov R, Qurbanov M. Modul tipli kurikulumlar və peşə-ixtisas təhsili. Bakı: Mütərcim, 2015.
2. Cahangirova T.V. Müasir təlim texnologiyaları. Bakı: ADNA-nın mətbəəsi, 2015
3. Mehrabov A.O. Azərbaycan Təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Sadıqov F.B., Həsənli O.Q. Didaktika, Bakı: Elm və Təhsil, 2014.
5. Ümumi psixologiya (V.İ.Petrovskinin müəllifliyi və redaktorluğu ilə), M., 1977.

**E-mail:** leyla.rustamova@mail.ru

**Rəyçilər**: ped.ü.elm.dok., prof. **F.B. Sadıqov,**
ped.ü.fəls.dok., dos. **Q. Şahbazova,**

**Redaksiyaya daxil olub:** 15.03.2021